# Yenidən təhsilə dəvət

## Təkcə təhsildən deyil, həm də oxumaq həvəsindən uzaq düşən insanlar yenidən parta arxasına dəvət edilir

**Uzun müddət təhsildən kənarda qalmış şəxslərin fərdi təhsilinin təşkili və tənzimlənməsini təmin etmək məqsədilə təhsil naziri Mikayıl Cabbarovun bu günlərdə imzaladığı əmr məktəb yollarını çoxdan yaddan çıxaran, kitab-dəftərin varlığını belə unudan insanlar üçün maariflənmənin heç zaman gec olmamasına çağırış kimi səslənir.**




Belə ki, uzun müddət təhsildən kənarda qalmış şəxslərin ümumtəhsil məktəblərində təşkil olunan fərdi təhsilinə aid 2016-2017-ci dərs ili üçün tədris planı və tədris planına dair "Qeydlər" təsdiq edilib. Bu tədris planı "Fərdi təhsilin təşkili haqqında Qaydalar"a uyğun olaraq, uzun müddət təhsildən kənarda qalmış şəxslərin təhsilinin təşkilini tənzimləyir. Tədris planına daxil edilən fənlər üzrə proqramlar nəzərdə tutulan həftəlik dərs saatlarının miqdarına uyğun olaraq, ən zəruri bilik və bacarıqların mənimsədilməsi təmin edilməklə müvafiq ümumi təhsil proqramları əsasında aidiyyəti fənn müəllimlərinin iştirakı ilə təhsil şöbəsinin (idarəsinin) metodkabineti tərəfindən hazırlanıb təsdiq olunur. Nazirlikdən mətbuata verilən məlumata görə, tədris planı üzrə dərslər həftədə 4 (dörd) gün təşkil edilir. Dərs məşğələlərinin müddəti 45 dəqiqədir. Dərs saatı həftədə 0,5 saat olan fənlər dərs cədvəlində qeyd edilməklə həftəaşırı tədris olunur. Fərdi təhsilə cəlb olunmuş şəxslər dərs ili ərzində müəyyən edilmiş tətillərə ümumtəhsil məktəb şagirdləri ilə eyni vaxtda buraxılırlar.

Tədris Azərbaycan dilində olan siniflərdə fərdi təhsil üzrə dərs saatlarının miqdarı 73,5, rus dilində olan siniflərdə isə 89,5-dir. Qeyd edək ki, "Təhsil haqqında" qanunvericilikdə təkcə 5-6 yaşlı şəxslər deyil, həmçinin bu və ya digər səbəblərə görə təhsildən yayınmış 15 və ya 25-35 yaşında şəxslərin belə ibtidai və orta təhsilə cəlb olunmaları haqqında maddə yer alıb.

Bununla belə, yaranan suallara cavab axtarmaq lazım gəlir: Uzun müddət təhsildən kənarda qalanlar əsasən kimlərdir? Hansı səbəbdən həmin insanlar təhsildən kənarda qalıblar? Onların alacağı təhsil keyfiyyətli olacaqmı?

### ZAMANINDA DİQQƏT YETİRMƏK

**Təhsil eksperti Almaz Həsrət** hesab edir ki, uzun müddət təhsildən kənarda qalmış şəxslərin təhsilinin davam etdirilməsinə xüsusi diqqət ayrılmalıdır: "Bu həmişə olub və davamlı olaraq da reallaşdırılmalıdır. Müəyyən səbəblərdən təhsildən kənarda qalanların təhsilinin davam etdirilməsi üçün həmişə dövlət tərəfindən nəzarət və xüsusi diqqət olunub. Çünki ən həssas tərəf də təhsildən uzaq qalanların sonrakı taleləri bəlli olmazsa, müəyyən sosial bəlalarla üzləşə biləcəyimizdir. Cəmiyyəti bu cür hallardan uzaqlaşdırmaq və belə halların qarşısını vaxtında almaq əsas şərtdir. Məhz o zaman sağlam və təmiz düşüncəli təhsilli insanlarla həmahəng yaşamış olarıq. Zamanında bütün bunlara diqqət yetirilməlidir".

Kimlərin və hansı səbəbdən təhsildən kənarda qalması məsələsinə toxunan ekspert hesab edir ki, əsas səbəb fərdin müəyyən ailə, sağlamlığı, sosial yaşayışı, məkan yerdəyişməsi, iş və s. ilə əlaqədar olan problemlərdir: "Bu səbəblər üzündən həmin şəxs təhsilini davam etdirə bilməmiş. Deməli, məlum səbəblərdən təhsilini davam edə bilməyibsə, çətinlikləri, problemləri sayəsindədir. Bəs nədən yenidən onların təhsili hansısa bir məktəb daxilində şəxsi iştiraklarının olması ilə keçirilməlidir. Axı elə hal olur ki, müəyyən səbəblər üzündən təkrar təhsilini sinif mühitində etmək iqtidarında olmaya bilər. O zaman çıxış yolumuz var. Nədən bu çıxış yolumuz məlum problemləri olanların təhsillərinin distant (məsafədən) təşkili olmasın? Artıq distant təhsil bir çox nüfuzlu xarici ölkələrdə özünü doğruldub. Bu yolla xaricdə nəinki tam orta ümumtəhsili, hətta ali təhsili də davam etdirirlər. Bizdə isə yalnız sağlamlığında problemi olan uşaqların təhsilləri üçün tətbiq edilir. Azərbaycan iqtisadi və texniki cəhətcə özünü tam doğrulda biləcək qüvvəyə sahib bir ölkədir. Belə olduğu bir dönəmdə, nədən bu cür təhsilin aparılmasında distant təhsil tətbiq edilməsin? Edilsə nəticəsi də çox uğurlu olacaqdır". Ekspertin fikrincə, uzun müddət təhsildən kənarda qalmış şəxslərin ümumtəhsil məktəblərində təşkil olunan fərdi təhsilinə aid tədris planı və tədris planına dair "Qeydlər"in elektron versiyada hazır internetdə yerləşdirilməsi və dərslərin onlayn aparılması çox böyük effektliyi ilə seçilə bilər. Belə ki, dərslərin məhz bu formada keçirilməsi təhsildən kənarda qalan şəxslərin sayının azalmasına da təsir göstərəcək: "Beləliklə də, uzun müddət təhsildən kənarda qalanların qarşısını almış olardıq".

### ƏYANİ, QİYABİ VƏ MƏSAFƏDƏN TƏHSİL

**Təhsil eksperti Kamran Əsədovun** sözlərinə görə, daha çox təhsildən yayınan uşaqlar Azərbaycandan kənarda olan ailələrin övladlarıdır. Belə ki, iş dalınca Rusiyaya gedən azərbaycanlıların sənədləri qaydada olmadığından övladları orada yaşadıqları müddətdə təhsildən kənarda qalırlar: "Bizə bununla bağlı kifayət qədər müraciət daxil olur. "Bizim artıq 15-17 yaşımız var. Ancaq təhsil almağımızla bağlı əlimizdə heç bir sənəd yoxdur", - deyə onlar bildirirlər". Ekspert bildirir ki, "Əlavə təhsil haqqında" qanuna görə, bütün vətəndaşların ibtidai sinfə qəbul edilməsinə icazə verilir. Düzdür, onlar bu zaman orta məktəblərdə 5-6 yaşlı şagirdlərlə bir yerdə oxumurlar. Belə ki, təhsilin əyani və ya qiyabi formasından başqa evdə təhsil və məsafədən təhsil də mövcuddur: "Biz Dünya Təhsil Konsepsiyasına qoşulmuşuq. Həmçinin dünya təhsil praktikasında olan üsulları cəlb etmək bizim vəzifəmizdir". Ekspertin sözlərinə görə, bu qərar təkcə xaricdə yaşayan azərbaycanlılara aid deyil: "Ölkənin bir sıra rayonlarında erkən yaşda nikah quran şəxslər var ki, onlar aşağı sinif yaş kateqoriyasında təhsildən yayınırlar. Tutaq ki, onlar ibtidai sinfə qədər gedirlər, sonra isə təhsillərini davam etdirmirlər. Həmçinin ölkənin bir çox kənd məktəbləri ibtidai xarakter daşıyır. Yəni orada təhsil 1-ci sinifdən 4-cü sinfə qədərdir. Ondan sonra şagirdlər yaxınlıqdakı digər kəndlərə təhsil dalınca getməlidirlər. Çox vaxt onlar bu təhsilin ardınca getmirlər". Statistikaya görə, 3500-dən çox şagirdin təhsilini yarımçıq saxladığını deyən ekspert hesab edir ki, bu baxımdan nazirin əmri təhsilin inkişafına yönəlmiş məsələdir: "Yetkinlik yaşına çatmayıb cinayət məsuliyyətinə cəlb olunan gənclər də var ki, onlar təhsillərini başa vurmayıblar. Azyaşlılar həbsxanasında kifayət qədər belə məhkum var. 800-dən çox məktəbli cəzaçəkmə müəssisəsində cəza çəkir. Təbii ki, onlar təhsildən yayınırlar. Tutaq ki, 7-9-cu sinifdə oxuyanda cinayət törədiblər və buna görə də təhsillərini başa vurmayıblar. Onlar həbs müddətlərini başa vurduqda məktəb yaşları da bitmiş olur. Hesab edirəm ki, bu addım keyfiyyət olmasa belə, təhsil alanların sayına təsir göstərəcək".

Ölkənin prioritet məsələlərindən birinin hər kəsin təhsil alması və maariflənməsi olmasını nəzərə alsaq onda nazirin bu əmrini mütərəqqi addım kimi qiymətləndirmək olar. İndi qalır təhsildən uzaq düşənlərdə həvəs yaradıb onları oxumağa cəlb etmək. Təkcə təhsildən deyil, həm də oxumaq həvəsindən uzaq düşən insanların yenidən parta arxasında oturmağa dəvət isə asan deyil. Təbii ki, ilk növbədə həvəs lazımdır. Nəticə isə ondan sonra gəlir...

**Təranə Məhərrəmova**

